RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 50 (8366) CÜMƏ AXŞAMI, 5 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Ağstafa gündən-günə müasirləşir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Ağstafa rayonuna səfəri çərçivəsində Ağstafa şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağstafa filialının fəaliyyəti ilə tanış olub, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinin, eləcə də Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun yenidənqurma və bərpadan sonra, 110/35/10 kilovoltluq "Ağstafa" elektrik yarımstansiyasının yenidənqurmadan sonra, Aqrar Sənaye Kompleksinin və Müdafiə Nazirliyinin Ağstafada yerləşən "N" saylı hərbi hissəsinin açılışlarında iştirak edib.

Bax: səh. 2

## Prezident İlham Əliyev Tovuz rayonunda bir sıra obyektlərin açılışlarında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Tovuz rayonunda da səfərdə olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı səfər çərçivəsində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, "Azərxalça" ASC-nin Tovuz filialının fəaliyyəti ilə tanış olub, Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin, Tarix-Diyarşünaslıq Muzeyinin, Dövlət Rəmzləri Muzeyinin, "ASAN Həyat" kompleksinin və Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq-Sarıtala avtomobil yolunun açılışlarında iştirak edib.

Prezident İlham Əliyevin Tovuz rayonuna səfərindən geniş hesabat martın 5-də oxuculara təqdim olunacaq.

## Operativ qərargah: İran ərazisində olan Azərbaycan vətəndaşlarının ölkəmizə geri qayıtması təmin edilir

İran İslam Respublikası ərazisində olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizə geri qayıtması təmin edilir. Bununla əlaqədar İran İslam Respublikasında olan vətəndaşlarımızın Azərbaycan Respublikasının Tehran şəhərindəki səfirliyinin və Təbriz şəhərindəki Baş Konsulluğunun qaynar xətlərinə daxil olan müraciətləri qeydiyyata götürülür.

AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabinetinin yanında operativ qərargahın məlumatında bildirilib.

Qeyd olunub ki, vətəndaşlarımızın qayıdışı sərhəd keçid məntəqəsində əvvəlcədən müəyyən edilmiş vaxtlarda fəaliyyət göstərən xüsusi dəhliz vasitəsilə həyata keçirilir. Bu məqsədlə İrandan Astara sərhəd-keçid məntəqəsinə gələn vətəndaşlar müvəqqəti qalma yerləri və zəruri şəraitlə təmin edilib, müəyyən olunmuş qrafiklə 276 nəfər Azərbaycan ərazisinə keçib. Sərhədi keçən vətəndaşlar xüsusi ayrılmış avtobuslarla karantin zonalarına aparılıb. Qeyd edək ki, İran İslam Respublikasından qayıdan vətəndaşlar mütləq şəkildə 14-29 gün müddətinə karantin rejiminə yerləşdirilir. Bütün vətəndaşlardan karantin rejiminin tələblərinə riayət etmək tələb olunur.

Əlavə sorğular üçün vətəndaşların Azərbaycan Respublikasının Tehrandakı səfirliyi və Təbrizdəki Baş Konsulluğunda açılmış qaynar xətlərə müraciət etməsi tövsiyə edilir. Sorğular daxil olduqdan sonra vətəndaşlarımızın Azərbaycana keçidinin uçuş reysi və xüsusi ayrılmış sərhəd dəhlizi ilə həyata keçirilməsi nəzərdə tutulur.

## Ağstafa rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağstafa rayonunun əhalisi 23334 nəfər olan 9 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 10 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 700,0 (yeddi yüz) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2020-ci il*

## Tovuz rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Tovuz rayonunun əhalisi 68296 nəfər olan 9 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 18 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,26 milyon (bir milyon iki yüz altmış min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2020-ci il*

## Tovuz rayonunun Əyyublu-Aran-Qovlar-Aşağı Quşçu-Koxanəbi avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Otuz bir min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Əyyublu-Aran-Qovlar-Aşağı Quşçu-Koxanəbi avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 15,8 milyon (on beş milyon səkkiz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2020-ci il*

## Azərbaycanda koronavirusla bağlı vəziyyət ciddi nəzarət altındadır

### **Prezident İlham ƏLİYEV:** "Azərbaycan hökuməti bütün lazımi tədbirləri görür"

**Son vaxtlar dünyanın əsas müzakirə mövzusuna çevrilən və müxtəlif ölkələrə sürətlə yayılan koronavirus infeksiyası ilə bağlı vəziyyət Azərbaycanda ciddi nəzarət altındadır. Hökumət bu virusun yayılmasının qarşısının alınması və profilaktikası ilə bağlı bütün lazımi tədbirləri görür.**

Ölkədə hər kəsin narahatlığına səbəb olan bu virus təhlükəsi ilə bağlı probleme Prezident İlham Əliyev də Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışındakı çıxışı zamanı toxunub. Dövlət başçısı xatırladıb ki, onun göstərişi ilə Nazirlər Kabinetinin yanında xüsusi operativ qərargah yaradılıb, lazımi tədbirlərin daha sürətlə həyata keçirilməsi üçün əlavə 10 milyon manat vəsait ayrılıb. İranda qalan Azərbaycan vətəndaşlarının təxliyə edilməsi üçün xüsusi tədbirlər həyata keçirilir: "Onların həm quru sərhəddən, həm də hava nəqliyyatı vasitəsilə Azərbaycana gətirilməsi təmin ediləcək. Ancaq hər kəs anlamalıdır, onlar lazım olan müddət ərzində karantində qalmalıdırlar ki, Azərbaycanda xəstəlik yayılmasın".

#### Kifayət qədər maska ehtiyatlarımız var

Prezident çıxışında koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkədəki bütün tədris, təlim-tərbiyə müəssisələrinin müvəqqəti bağlanması məsələsinə də aydınlıq gətirərək qeyd edib ki, bu qərarın məqsədi uşaqları, yeniyetmələri o xəstəlikdən qorumaqdır: "Yəni bütün lazımi tədbirlər görülür. Azərbaycanda bu xəstəliyin bu günə olan məlumata görə, yayılması ehtimalı o qədər də yüksək deyil.

Ardı 6-cı səh.



## Siyasi tərəfdaşlıq mədəni əməkdaşlıqdan başlayır

Müstəqilliyinin bərpasından sonra Azərbaycan üçüncü onillik ərəfəsində regionun ən inkişaf edən ölkələrindən biri, o cümlədən mədəniyyətlər, etnik qruplar və fərqli dinlərin birgəyaşayış modeli kimi özünü artıq təsdiq edib.

Aradan keçən müddətdə mövcud diplomatik əlaqələr çərçivəsində Azərbaycan inkişaf etmiş Avropa dövlətləri ilə sıx əməkdaşlıq, bəziləri ilə isə artıq strateji tərəfdaşlıq səviyyəsində münasibətlər qurub. Bu, əlbəttə, Azərbaycan dövlətinin bütün istiqamətlərdə inkişafı əsasında mümkünləşib. Siyasi, iqtisadi, mədəni münasibətlər fonunda ölkəmizin əlaqələri ildən-ilə artmaqda, müxtəlif nüfuzlu beynəlxalq təşkilatların üzvü kimi də tanınmaqdadır. Azərbaycan-İtaliya münasibətlərində də müstəsna inkişaf tempi yaranıb. Bu, həmçinin öz baxışlarını Avro-Aralıq dənizi məkanına yönəldən və balanslaşdırılmış geosiyasi mövqeyinə görə güclü olan rəsmi Bakının seçimi sayəsində əldə edilib.

Ardı 5-ci səh.

### 5 mart Bədən tərbiyəsi və idman günüdür

## Azərbaycan idmanı yeni zirvələr fəth edir

Sağlamlığın qorunması və möhkəmlənməsində, gənclərin fiziki inkişafında, ölkənin idman şərəfinin beynəlxalq aləmdə uca tutulmasında bədən tərbiyəsi və idmanın müstəsna əhəmiyyətini nəzərə alan Azərbaycan Prezidentinin 2005-ci il 4 mart tarixli sərəncamı ilə hər il martın 5-i ölkəmizdə Bədən tərbiyəsi və idman günü kimi qeyd olunur. "Bədən tərbiyəsi və idman haqqında" qanun bu sahədə fəaliyyətin təşkilati-hüquqi, sosial-iqtisadi əsaslarını və dövlət siyasətinin prinsiplərini müəyyən edir, vətəndaşın bədən tərbiyəsi və idmanla məşğul olmasına imkan yaradır.

Sevindirici haldır ki, bu gün Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır. Hər il müxtəlif nüfuzlu beynəlxalq yarışların Azərbaycanda keçirilməsi və atletlərimizin turnirlərdə qazandığı yüksək nəticələr idmanda ölkəmizə böyük imic qazandırıb. Bu bayram günündə idmanımızın ötən bir ildə keçdiyi yola nəzər salınsa, böyük nailiyyətlərlə əlamətdar olduğunu görmək mümkündür.

Atletlərimiz ötən il müxtəlif turnirlərdə olimpiya və qeyri-olimpiya idman növləri üzrə ölkəmizi şərəflə təmsil ediblər. İdmançılarımız 775 medal qazanıblar ki, bunların 271-i qızıl, 238-i gümüş, 266-sı bürüncdür. Milli komandalarımız 243 beynəlxalq yarışa qatılıb.

Ölkəmizdə 62 beynəlxalq idman tədbiri keçirilib. Onların arasında "Formula-1" Azərbaycan Qran-prisini, UEFA Avropa Liqasının finalını, Avropa Gənclərinin XV Yay Olimpiya Festivalını, gimnastika üzrə dünya kubokları uğrunda turniri və digərlərini göstərmək olar.

Paytaxtımızda dördüncü dəfə keçirilən planetin bir nömrəli avtomobil yarışı - "Formula-1" Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışdı.

Ardı 5-ci səh.

# Ağstafa gündən-günə müasirləşir

## Ulu Öndərin abidəsini ziyarət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Ağstafa rayonuna səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Ağstafa şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Hazırda dünyada böyük narahatlıq yaradan koronavirus infeksiyasına yoluxmaq təhlükəsi olsa da, Azərbaycan Prezidenti bölgələrə səfərini təxirə salmadı. Baxmayaraq ki, koronavirusun yayıldığı ölkələrin heç birində dövlət başçıları regionlara səfər etmir, insanlarla görüşmür.

Amma Azərbaycan Prezidenti bu addımı ilə bir daha göstərdi ki, ölkənin regionlarında vəziyyət, insanların problemlərinin həlli dövlət başçısı üçün prioritet məsələdir.

## Ağstafa filialı regionda xalçaçılığın inkişafına böyük töhfə verəcək





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağstafa filialının fəaliyyəti ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, "Azərxalça" ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısına müəssisədə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 1200 kvadratmetrdən çox olan filial binasında 150 toxucunun çalışması nəzərdə tutulub. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanadakı 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq. Əsasən Ağstafa, Qazax və Tovuz rayonlarının yaşayış məntəqələrindəki orijinal xalça çeşnilərinin toxunmasına üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Toxucular Ağstafa şəhərinin və rayonun digər yaşayış məntəqələrinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Hazırlıq-tədris kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları "Azərxalça" ASC-nin tədris sertifikatını alacaqlar. Xalça-satış salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Qeyd edək ki, Azərbaycan xalçalarının, milli naxışlarımızın şöhrəti dünyanı heyran qoyub. Milli xalçalarımızın ta qədimlərdən başlayan şöhrəti bu gün yeni layihələrlə zənginləşir. Prezident İlham Əliyevin sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması da məhz bu amildən qaynaqlanırdı. Cəmiyyətin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili, xalça istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadədir. Amma bu layihənin icrasında əsas məqsədlərdən biri də yeni iş yerlərinin yaradılması, ən çox da qadınların işlə təmin olunması idi və artıq bu məqsədə nail olunub. "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti fəaliyyətə başlayandan sonra artıq onun bir çox regionlarda filialları yaradılıb. Ağstafa filialı da bu regionda xalçaçılığın inkişafına böyük töhfə verəcək.

## Prezident İlham Əliyev Daxili Qoşunların "N" saylı hərbi hissəsinin açılışında iştirak edib









**Ağstafa rayonuna səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 4-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlət başçısı hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov bildirdi ki, bu hərbi hissənin inşasına 2018-ci ilin iyun ayında başlanılıb. Ötən il isə tikinti işləri başa çatdırılıb. Hərbi hissənin ümumi ərazisi 5 hektardır. Burada əsgər yataqxanası, qərargah-kazarma binası, 150 yerlik yeməkxana inşa olunub.

Son illərdə Daxili Qoşunların maddi-texniki bazasının gücləndirilməsi prosesində şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə həyata keçirilən tədbirlər nəticəsində bütün hərbi hissələrdə yüksək şəraitin yaradılması istiqamətində xeyli iş görülüb və bu proses indi də davam edir.



Bu hərbi hissədə yaradılan şərait bir daha göstərir ki, Azərbaycanda ordu quruculuğu sahəsində həyata keçirilən mühüm işlər çərçivəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının maddi-texniki bazası, kadr potensialı da əhəmiyyətli dərəcədə möhkəmlənib.

Prezident İlham Əliyev Daxili Qoşunların hərbi silah-sursat və texnikasına baxdı.

Bu gün əminliklə demək olar ki, Daxili Qoşunlar qarşıya qoyulan vəzifəni yüksək peşəkarlıqla yerinə yetiriblər. Ali Baş Komandanın diqqəti sayəsində Daxili Qoşunların maddi-texniki bazası, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr ən yüksək beynəlxalq standartlara uyğun olan texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib. Bu gün Daxili Qoşunlara göstərilən dövlət qayğısı özünü istər peşəkar kadr hazırlığının və döyüş qabiliyyətinin yüksəldilməsində, istər maddi-texniki bazanın möhkəmləndirilməsində, istərsə də yeni hərbi hissələrin açılışında daha qabarıq şəkildə göstərir.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanılıb, daxili işlər orqanlarının maddi-texniki bazası daha da möhkəmlənib, hərbi qulluqçuların sosial-məişət şəraiti yaxşılaşıb. Son illərdə Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarla obyekt, hərbi şəhərcik, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri tikilərək istifadəyə verilib. Ümumiyyətlə, ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olan Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakı ilə seçilir, yüksək peşəkarlıq, döyüş və mənəvi-psixoloji hazırlığa malik olduğunu nümayiş etdirir. Ölkəmizə qarşı elan olunmamış müharibənin ilk günlərindən Daxili Qoşunlar cəbhə xəttində şərəfli döyüş yolu keçib, bu yolda yüzlərlə şəhid verib. Qüdrətli Azərbaycan Ordusu ilə yanaşı, Daxili Qoşunların şəxsi heyəti də öz üzərinə düşən xidməti vəzifələri ilə bərabər, torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün Ali Baş Komandanın verəcəyi əmrin icrasına hər an hazırdır və döyüş hazırlığını hər zaman yüksək səviyyədə saxlayır.

## Dörd min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən yol istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.**





AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlərlə bağlı dövlət başçısına məlumat verdi.

Bildirildi ki, uzunluğu 9,3 kilometr olan yol 4-cü, 5-ci texniki dərəcəlidir, hərəkət hissəsinin eni 5-6 metr, hərəkət zolaqlarının sayı isə 2-dir. Dövlət başçısının ötən ilin mayında imzaladığı sərəncama əsasən yenidən qurulan bu yol 19 min nəfərin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirir. Avtomobil yolunun tikintisi 7 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb edəcək.



Prezident İlham Əliyevə Ağstafa rayonunun Kolayır-Düzqışlaq-Mollacəfərli-Xılxına-Qarahəsənli avtomobil yolunun tikintisi layihəsi barədə də məlumat verildi. Dörd min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən bu yolun uzunluğu 10 kilometrdir. Dövlət başçısının 2018-ci ildə imzaladığı sərəncama əsasən bu yolun əsaslı təmiri həmin ərazidə yaşayan sakinlərin rayon mərkəzi ilə gediş-gəlişini asanlaşdıracaq, yük və sərnişin daşınmasına töhfə verəcək.

Qeyd edək ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər, ilk növbədə, vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir. Belə layihələrdən biri də Ağstafa-Yenigün-Xətai-Poylu-Xılxına avtomobil yolunun tikintisidir.

Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Ağstafa gündən-günə müasirləşir

## “Ağstafa” elektrik yarımstansiyası yenidənqurmadan sonra istifadəyə verilib

Yenidən qurulan 110/35/10 kilovoltluq “Ağstafa” elektrik yarımstansiyası martın 4-də istismara verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlət başçısına yarımstansiya haqqında məlumat verdi.

Bildirildi ki, Ağstafa və Qazax rayonlarının böyük bir hissəsinin, xüsusən də Qazax rayonunun cəbhəyanı ərazilərinin elektrik təchizatında olan problemlərin aradan qaldırılması və hər iki rayonda elektrik enerjisinə artan tələbatın qarşılanması məqsədilə 1967-ci ildə istismara verilmiş, köhnələrək öz texniki parametrlərini itirmiş 110/35/10 kilovoltluq “Ağstafa” yarımstansiyasında 25 meqavatamper gücündə 2 yeni transformator quraşdırılıb. Nəticədə yarımstansiyanın gücü 10 meqavatamper artırılaraq 50 meqavatamperə çatdırılıb. Yarımstansiyada 110, 35 və 10 kilovoltluq yeni paylayıcı qurğular inşa olunub, müasir standartlara cavab verən elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri, məsafədən dispetçer idarəetmə SCADA sistemi quraşdırılıb. Ağstafa və Qazax rayonlarında yerləşən 110 kilovoltluq 3 yarımstansiya arasında yaradılmış 35 kilovoltluq dairəvi elektrik təchizat sxeminin dayanıqlılığının artırılması 110 kilovoltluq “Ağstafa” yarımstansiyasının yenidən qurulması ilə tamamlanıb. Bu da həmin rayonların elektrik təchizatının fasiləsizliyini və etibarlılığını təmin edəcək.







Diqqətə çatdırıldı ki, Ağstafa rayonu üzrə istehlakçıların hamısı, Qazax rayonu üzrə isə 61,9 faizi, ümumilikdə hər iki rayon üzrə 34 min 590 abonent bu yarımstansiyadan elektrik enerjisi alır.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığı ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb, bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıb. Bu sırada Ağstafa rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması prioritet məsələlərdən olub. Bu ərazidə son illərdə aparılan geniş tikinti, yenidənqurma və bərpa işləri nəticəsində rayonun kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin artan elektrik tələbatının qarşılanması üçün geniş imkanlar yaradılıb. Son illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənib və hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bunların sayəsində mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıb.

Sonda xatirə şəkli çəkdirildi.

# Ağstafa Aqrar Sənaye Kompleksinin açılışı olub

## Prezident İlham Əliyev açılışda iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Ağstafa Aqrar Sənaye Kompleksinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, “Ağstafa Aqrar Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının sədri Rəsul Orucov dövlət başçısına burada həyata keçirilən işlər və yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, layihənin ikinci mərhələsində kompleksdə saatda 5 ton emal gücü olan paxlalı bitkilərin toxumu istehsalı zavodu, saatda 25 ton emal gücü olan dənli bitkilərin toxumu istehsalı zavodu, saatda 200 ton təmizləmə və 50 ton qurutma avadanlığı ilə təchiz olunmuş, ümumi həcmi 36 min ton saxlama gücü olan rezervuarlar quraşdırılıb. Bundan başqa, kompleksdə sutkada 120 ton emal gücü olan dəyirman, çörək və yarımfabrikatlar istehsalı zavodu, müasir avadanlıqlarla təchiz edilmiş fast-food iaşə xidmətləri obyekti, aqromarket, yeraltı avtomobil dayanacağı inşa edilərək istifadəyə verilib.





Dövlət başçısı müəssisəni işə saldı.

Məlumat verildi ki, müəssisə toxum istehsalından başlayaraq taxılın becərilməsini, emalını son istehlak məhsuluna gətirərək əhaliyə təqdim edir. Məhsullar həm keyfiyyət göstəricilərinə, həm də beynəlxalq bio standartlarına tam cavab verir. İstehsal sahələrində istifadə olunan bütün texnoloji xətlər Almaniya və İsveçrə avadanlıqlarıdır. Müəssisə beynəlxalq bio sertifikat alınması məqsədilə müvafiq sertifikatlaşma proseslərini həyata keçirərək istehsal edəcəyi toxum və digər yarımfabrikat məhsulları ixrac etmək istiqamətində müvafiq iş aparır.

Kompleksdə, eyni zamanda, 300 yerlik multifunksional mədəniyyət mərkəzi də yaradılıb. Burada müxtəlif səpkili tədbirləri yüksək səviyyədə keçirmək mümkündür.

Prezident İlham Əliyev müəssisədə istehsal olunan məhsullara baxdı.

Qeyd edək ki, layihənin 3-cü mərhələsi çərçivəsində Qazax rayonunda logistika-nəqliyyat mərkəzinin tikintisi və Ağstafa Aqroparkının nəzdində 25 min kubmetrlik meyvə-tərəvəz saxlanması üçün soyuducu anbarın inşası, həmçinin regionda aqrar turizm sahəsinin inkişafı məqsədilə hotel kompleksinin inşasına start verilib.

Ağstafa Aqroparkın ümumi ərazisi 20 hektar təşkil edir ki, onun da 10 hektarında artıq inşaat işləri başa çatdırılıb, növbəti 6 hektarda isə tikintiyə başlanıb. Ağstafa Aqroparkının Qazax rayonunun Çaylı kəndində inşa etdiyi nəqliyyat-logistika mərkəzi 4,2 hektar ərazini əhatə edir. Bu cür layihələrin inşası ölkədə iş yerlərinin yaradılması istiqamətində həyata keçirilən tədbirlərə də böyük töhfə verir. Ümumilikdə Ağstafa Aqroparkında və onun törəmə müəssisələrində çalışanların ümumi sayı 360 nəfər təşkil edir ki, bu da regionda məşğulluğun təmin olunması sahəsində önəmli yer tutur. Layihənin əsas konsepsiyalarından biri də “Tarladan süfrəyə” prinsipinin həyata keçirilməsidir.

Sonra Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Sizi salamlayıram, mən artıq üçüncü dəfədir ki, Ağstafa aqrar parkının işi ilə tanış oluram. Hər dəfə burada olanda yeniliklər görürəm, inkişaf görürəm. Şadam ki, aqroparkın bu illər ərzində inkişafı çox sürətlidir və o cümlədən mənim də tövsiyələrim nəzərə alınıbdır. Beləliklə, Ağstafa rayonunda çox müasir istehsal, kommersiya, ticarət kompleksi yaradılıb.

Mən birinci dəfə burada 2012-ci ildə olmuşam. O vaxt biz aqroparkın yaradılmasının birinci mərhələsini qeyd edirdik. Ondan sonra 2016-cı ildə bu gün burada tanış olduğum müəssisənin təməl daşı qoyulmuşdur və bu gün - 2020-ci ildə yenə də buradayam. Şadam ki, bu aqropark bu gün Azərbaycanın kənd təsərrüfatı və emal sahəsində çox önəmli rol oynayan böyük bir müəssisədir. Bu da təbiidir. Çünki Azərbaycanda sahibkarlar, investorlar üçün çox gözəl şərait yaradılıb. Onlar bilirlər ki, dövlət onların arxasındadır. Bilirlər ki, Azərbaycan bundan sonra da sabitlik yolu ilə gedəcək və investorlar üçün əsas məsələlər bunlardır. Hər bir investor - istər xarici olsun, istər daxili olsun, öz investisiyalarını planlaşdıranda mütləq bu amilləri nəzərə alır. Bir çox xarici investorlarla görüşlər əsnasında onların mənə bildirdikləri əsas fikir o idi ki, Azərbaycanda sabitlik var. Bu sabitliyin artıq 27 yaşı var və bundan sonra da ölkənin uğurlu inkişafı heç kimdə şübhə doğurmur.

Bundan əlavə, mövcud olan infrastruktur. Əgər indiyədək dövlət tərəfindən bölgələrdə infrastruktur layihələri icra edilməsəydi, yəqin ki, investorlar da investisiyaları üçün başqa yerlər axtaracaqdılar. Ağstafa rayonunda bu sahədə çox böyük işlər görülüb. Bu gün yeni yarımstansiyanın açılışında mənə məlumat verildi ki, indi Ağstafa rayonunun enerji təchizatı 20 meqavat ətrafındadır, ancaq potensial iki dəfə bundan böyükdür. Yəni, iki dəfə bundan artıq sənaye müəssisələrinin, digər obyektlərin yaradılması artıq mövcud enerji gücləri ilə təmin ediləcək. Əlbəttə ki, enerji təminatının yaxşı səviyyədə olması biznes üçün vacib şərtlərdən biridir. Bildirməliyəm ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Qazlaşdırma səviyyəsi Ağstafa rayonunda 90 faizdir. Təmirli yolların səviyyəsi 90 faizə yaxındır. İçməli su layihəsi 2013-cü ildə başa çatmışdır, istismara verilmişdir. Yəni, investorlar üçün bütün şərait yaradılıb. Şadam ki, Ağstafa Aqroparkının investorları bütün bu imkanlardan istifadə edib, böyük vəsait qoyublar. Mənə verilən məlumata görə, 80 milyon manat ətrafında vəsait qoyulub və qoyulan vəsait göz qabağındadır. Çünki bir daha demək istəyirəm, üçüncü dəfədir ki, buradayam və bu aqroparkın inkişafının tarixçəsi də mənim gözümün önündə olub.

Bu aqroparkın kənd təsərrüfatının inkişafına da çox böyük dəstəyi olacaq. Mən maraqlandım, məhsuldarlıq orta məhsuldarlıqdan çoxdur. Ölkə üzrə taxılçılıqda orta məhsuldarlıq 32 sentnerdir, sizdə isə 40-50 sentner məhsul əldə edilir. Bu da çox vacibdir. Çünki bizim əkin sahələrimiz bir qədər məhdud olduğu üçün məhsuldarlığın artırılmasına xüsusi diqqət göstərilməlidir.

Sahibkarlar dövlət tərəfindən qayğı ilə əhatə olunub, dövlət öz dəstəyini göstərir. Bu aqroparkın yaradılmasına da dövlət öz maliyyə dəstəyini göstəribdir, ancaq investorların qoyduğu vəsait ondan qat-qat artıqdır. Amma dövlət öz dəstəyini göstərməklə, eyni zamanda, öz siyasi dəstəyini də göstərir. Sahibkarlığın inkişafı bundan sonra ölkəmizin inkişafının əsas şərti olacaq. Çünki dövlət xətti ilə icra edilən əsas infrastruktur layihələri başa çatmaq üzrədir. Ona görə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması - bütün bunlar dövlət siyasətimizin tərkib hissəsidir. İnvestorlar da belə gözəl müəssisələrin yaradılması ilə digər sahibkarlara da yol göstərirlər ki, gəlin, siz də vəsait qoyun. Azərbaycanlı investorlar, ilk növbədə, Azərbaycana vəsait qoymalıdırlar ki, bizdə işlər daha yaxşı getsin. Çünki bizim əhalimiz artır. Biz hər il 100 min artan əhalini gələcəkdə iş yerləri ilə təmin etməliyik. Ona görə iqtisadi inkişaf, sərmayə qoyuluşu demoqrafik inkişafı üstələməlidir. Bu, əsas vəzifədir. Əlbəttə ki, işlə təmin edilən vətəndaşlar yaxşı maaşla təmin olunmalıdırlar, onların iş şəraiti yaxşı olmalıdır. Mən demişəm ki, 8 saatlıq iş günü vardır və heç bir işçini ondan artıq işlətmək olmaz. Eyni zamanda, bütün işçilər gərək rəsmi qaydada maaş alsınlar, kölgə iqtisadiyyatına yol vermək olmaz. Qeyri-rəsmi məşğulluğa yol vermək olmaz. Sizin kimi müəssisələrdə bu faktlar yoxdur və ümumiyyətlə ola da bilməz. Çünki sizin yanaşmanız beynəlxalq yanaşmadır və mən istəyirəm ki, bütün Azərbaycan müəssisələri bu prinsiplər əsasında işləsinlər.

Mən bunu artıq bir neçə dəfə demişəm, bir daha işçilərə demək istəyirəm. Xüsusilə nəzərə alsaq ki, bu bölgədə aprelin əvvəlindən səhiyyə sistemimiz icbari tibbi sığorta sisteminə keçir, pulsuz tibbi xidmət almaq üçün vətəndaşlar gərək mütləq rəsmi qaydada işləsinlər. Ona görə qeyri-rəsmi məşğulluğa qarşı mübarizə üsullarından biri də icbari tibbi sığorta olacaq. Əlbəttə ki, əgər kimsə qeyri-rəsmi işləyirsə, gələcəkdə pensiyadan da məhrum olacaq.

Bir sözlə, belə gözəl müəssisələrin yaradılması və inkişafı məni çox sevindirir. Xüsusilə mən bu aqroparkın timsalında ardıcıl siyasəti görürəm. Çünki bəzi hallarda müəssisə yaradılır, hətta elə hallar olub ki, mən o müəssisələrin açılışında iştirak etmişəm, ondan bir müddət sonra o bağlanır. Deməli, iş prosesi düzgün qurulmayıb. Amma sizdə nəinki bağlanmayıb, hətta mənim bura gəldiyim bu 8 il ərzində hər dəfə inkişaf, yenilik görürəm. Görürəm ki, burada insanlara yüksək qayğı göstərilir. Bu şərait böyük zövqlə yaradılıb, eyni zamanda, market, kafe. Hər şey insanlar üçündür ki, Azərbaycan vətəndaşları daha yaxşı, rahat yaşasınlar. Bunları təmin etmək üçün Azərbaycan dövlətinin kifayət qədər iradəsi, imkanları var və Ağstafa rayonunda görülən işlər buna əyani sübutdur.

Sizi bir daha təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Mən maraqlandım və məlumat verildi ki, bu üçüncü mərhələ sonuncu mərhələdir. Amma sizin başqa planlarınız da var və ümid edirəm ki, növbəti dəfə sizinlə burada görüşəndə yeni layihələr haqqında mənə məruzə edəcəksiniz. Sağ olun.

* * *

Kompleksin əməkdaşı **Şahlar Məhərrəmov** onların fəaliyyətinə verdiyi dəstəyə görə dövlətimizin başçısına təşəkkür edərək dedi:

*Ardı 4-cü səh.*

# Ağstafa gündən-günə müasirləşir

## Ağstafa Aqrar Sənaye Kompleksinin açılışı olub

### Prezident İlham Əliyev açılışda iştirak edib





*Əvvəli 3-cü səh.*

- Cənab Prezident, Ağstafaya gəlməyiniz münasibətilə Sizə "Çox sağ olun!" deyirəm.

Cənab Prezident, inanın səmimiyyətimizə, biz ağstafalılar əvvəllər Bakı şəhərinə gedəndə paytaxtda o cür gözəl şəraitin yaradıldığını görəndə bizə yuxu kimi gəlirdi ki, görəsən, bizim Ağstafamızda da bu cür şərait qurula bilərmi, bu cür şərait ola bilərmi. Çox şükür bugünkü günə. Bu gün açılışında iştirak etdiyimiz bu gözəl şəraiti bizə bəxş etdiyinizə görə cənab Prezident, Sizə bütün ağstafalılar adından "Çox sağ olun!" deyirəm. Allah Sizi var eləsin, Allah Sizi qorusun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

Sonra xatirə şəkli çəkdirildi.

Dövlət başçısına minnətdarlığını bildirən kompleksin **Müşahidə Şurasının sədri Rəsul Orucov** dedi:

- Cənab Prezident, bizim mədəniyyət mərkəzinin özünün musiqi kollektivi də var. Bizim Sahil adlı bir işçimiz var, əlildir, bütövlükdə gözü görmür. Onun üçün xüsusi olaraq Almaniyadan İtaliya istehsallı zərb aləti gətirmişəm. Zərb alətində çox gözəl ifa edir. Biz bayram tədbirlərinə hazırlaşırıq.

**Skripka ifaçısı Ceyhun:**
- Cənab Prezident, bölgələrdə o qədər gözəl şərait yaratmısınız ki, böyük məmnuniyyətlə gəlirəm, burada bu cavan uşaqlarla kollektiv düzəltmişik, silsilə tədbirlər keçiririk.

**Prezident İlham ƏLİYEV:** Keçirin, vətəndaşlar da, sənət adamları da razı olsunlar. Belə çox müasir, gözəl konsert zalı harada var? Belə də davam edin. Sağ olun.

Qeyd edək ki, dövlət başçısının rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı, ixracyönümlü məhsullar istehsal edən müəssisələrin yaradılması və ümumilikdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox mühüm layihələr icra olunub. Bu baxımdan həyata keçirilən işlər arasında aqrar sənaye komplekslərinin yaradılması müstəsna əhəmiyyət kəsb edir. Aqrar sektorun inkişafında, regionlarda iqtisadi potensialın artırılmasında, ərzaq təhlükəsizliyinin təmin olunmasında yeni metod və üsulların tətbiqi, qabaqcıl texnologiyalara əsaslanan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması bir neçə mühüm amili özündə birləşdirir. Ağstafa Aqrar Sənaye Kompleksi ölkədə bu cür layihələrin icrası ilə bağlı görülən işlərin ardıcıl xarakter aldığını göstərir. Bu kompleks 2010-cu ildə dövlət qeydiyyatından keçərək 2010-2012-ci illər ərzində bitkiçilik bölməsinin yaradılması məqsədilə qurulub. O zaman bu aqroservis 15 min hektar sahədə xidmət göstərmək üçün lazım olan bütün texnika və avadanlıqlarla təchiz edilib. 2012-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə layihənin birinci mərhələsinin açılışı olub.

2016-cı ildə isə müəssisə öz inkişaf planına uyğun olaraq bitkiçilik bölməsini, anbar sahələrini inşa edərək layihənin ikinci mərhələsində nəzərdə tutulmuş işlərə start verib. Belə komplekslər aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq edərək sosial-iqtisadi inkişafın sürətləndirilməsində, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixrac potensialının və məşğulluğun artırılmasında böyük əhəmiyyətə malikdir. Aqroparkların, bu cür komplekslərin yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı-emalçı-istehlakçı münasibətlərinin formalaşmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında mühüm rol oynayacaq.

## Ağstafada Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi ilə tanışlıq









Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 4-də Müdafiə Nazirliyinin Ağstafada yeni inşa olunan "N" saylı hərbi hissəsinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlət başçısı hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Bildirdi ki, bu hərbi hissənin tikintisinə 2017-ci ilin noyabr ayında başlanıb və 2019-cu ilin sentyabrında inşaat işləri başa çatdırılıb. Ümumi sahəsi 10 hektar olan hərbi hissənin ərazisində bütün zəruri sosial infrastruktur yaradılıb. Hərbi hissənin idarə heyəti üçün burada qərargah binası - ideoloji otaq, brifinq, akt zalları və digər xidməti iş otaqları var.

Hərbi hissədə Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri, Baş qərargah rəisi və birlik komandirinin iştirakı ilə operativ müşavirə keçirildi.

Qeyd edək ki, yeni hərbi hissənin ərazisində yataqxana binaları, stomatoloq, fizioterapiya, funksional diaqnostika bölmələrinin olduğu tibb məntəqəsi var. Burada döyüş hazırlığı qabiliyyətini təkmilləşdirmək məqsədilə daxilində döyüş hazırlığı üçün təlim meydançaları olan qarovul şəhərciyi də inşa edilib. Ərazidə geniş abadlıq və yaşıllıq işləri görülüb.

Bu hərbi hissədə yaradılan şərait bir daha sübut edir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illərdə maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq dünyanın ən qüdrətli ordularından biri kimi tanınır. Ordumuzun son dövrlərdə qazandığı qələbələr aydın şəkildə göstərir ki, Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandanının əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vurmaqla torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Yenilməz və güclü ordumuzda xidmətləri ilə fəxr edən Azərbaycan əsgəri vətənpərvərdir, mübarizdir, qorxmazdır, cəsarətlidir, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri vətəninə, xalqına, dövlətinə, Ali Baş Komandanına həmişə sadiqdir. Hərbi qulluqçular üçün bu cür müasir şəraitin yaradılması Azərbaycan dövlətinin əsgər və zabitlərə diqqətini aydın şəkildə göstərir. Bu cür hərbi hissələrin yaradılması xidməti yüksək səviyyədə aparmağa və hərbin sirlərinə daha dərindən yiyələnməyə geniş imkanlar açır.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyevə ən müasir yeni hərbi texnikalar təqdim olundu.

Bildirildi ki, tank əleyhinə idarə olunan raket kompleksi "SPİKE-ER" qurğusu döyüş maşını üzərində quraşdırılan, müxtəlif relyef şəraitinə uyğunlaşdırılan, 400 metrdən 8000 metrə qədər gündüz, gecə və məhdud görmə şəraitində düşmən tanklarını, piyadaların döyüş maşınlarını və zirehli texnikalarını məhv etmək üçün təyin olunmuş raketburaxıcı sistemdir. 122 millimetrlik "HAUBİTSA 2A18 D-30", 122 millimetrlik "ÖAQ 2S1" və 122 millimetrlik "YARS BM-21 V" qurğuları düşmənin açıq və qapalı yerlərdə yerləşən canlı qüvvəsini, atəş vasitələrini, uzunmüddətli örtülü açıq tipli müdafiə qurğularını məhv etmək, minalanmış sahələrdən keçid açmaq, düşmənin artilleriyasını və tank bölmələrini atəşə tutmaq üçün təyin olunub. "RM-70 döyüş maşını m-21OF" qəlpələnən-fuqas mərmisi ilə atış apararkən toplanma rayonlarında düşmənin canlı qüvvəsini və döyüş texnikasını, artilleriya və minaatan batareyalarını məhv etmək və susdurmaq, düşmənin istehkam, dayaq məntəqəsi və müqavimət mərkəzlərini dağıtmaq tapşırıqlarını yerinə yetirir. Özüyeriyən top, haubitsa qurğusu 152 millimetrlik "DANA M1M" avtomatik doldurmaya malik olan yeni artilleriya qurğusu olub, düşmənin artilleriya qurğularını, atəş vasitələrini, komanda və idarəetmə məntəqələrini, istehkam qurğularını, tank və zirehli texnikalarını məhv etmək üçün təyin olunub. 306 millimetrlik "Ekstra" taktiki raket sistemidir. İqlim şəraitindən asılı olmayaraq, 30-150 kilometr məsafəyə raket buraxmaqla cəmləşmə rayonlarında, marşda və döyüş düzülüşündə raket bölmələrini, ordu komanda məntəqələrini, mövqelərdə hava raket hücumundan müdafiə bölmələrini məhv etmək üçün təyin olunub. Əməliyyat-taktiki raket kompleksləri "POLONEZ" və "LORA" düşmənin əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunlarının əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurmaq, dənizsahili istiqamətlərdə isə bundan əlavə, düşmən donanmasının yerləşmə məntəqələrini dağıtmaq və onun döyüş gəmilərini məhv etmək üçün təyin olunub. "MKAP-19" səhra komanda və idarəetmə məntəqələrinin daxilində və bir-biriləri arasında, həmçinin stasionar idarəetmə məntəqələri ilə İP texnologiyaları əsasında səs, data və video məlumat mübadiləsini təmin edən kompleksdir.

Dövlət başçısına hərəkətli mobil kommunikasiya avadanlıqları barədə də məlumat verildi.

Azərbaycan Ordusunun ən müasir silah, döyüş texnikası və avadanlıqlarla təchizatı və təminatı davam edir.

Ali Baş Komandan qoşunların strateji və əməliyyat idarəetmə orqanlarının istifadəsinə yeni verilmiş informasiya və kommunikasiya texnologiyaları ilə tanış olaraq operativ, gizli və yüksəksəviyyəli qorunan idarəetmə sistemli videobağlantıda iştirak edib.

Ali Baş Komandan mərkəzi, ehtiyat, səhra şəraitində yaradılmış Ön, Hərbi Hava, Hərbi Dəniz və Xüsusi Təyinatlı Qüvvələrin, eləcə də digər qoşun növlərinin idarəetmə məntəqələri ilə birbaşa əlaqə saxlayaraq məruzələri qəbul edib və irimiqyaslı komanda-qərargah təlimlərində iştirak edən qoşunlara müvafiq tapşırıqlar verib.

Qeyd edək ki, ölkəmizdə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Məqsədyönlü tədbirlər nəticəsində bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədədir, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin edilməsi ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və həmin təlimlərdə ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlət başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır.

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 mart tarixli Sərəncamına Əlavə*

## Ağstafa rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Aşağı Göycəli kəndi | 1 | 2501 |
| 2. | Dağ Kəsəmən kəndi | 1 | 7476 |
| 3. | Göycəli kəndi | 1 | 2725 |
| 4. | Xılxına kəndi | 1 | 1125 |
| 5. | Kolxəlfəli kəndi | 1 | 1456 |
| 6. | Qarahəsənli kəndi | 1 | 1622 |
| 7. | Muğanlı kəndi | 1 | 2948 |
| 8. | Pirili kəndi | 2 | 1234 |
| 9. | Tatlı kəndi | 1 | 2247 |
| **Cəmi** | | **10** | **23 334** |

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 mart tarixli Sərəncamına Əlavə*

## Tovuz rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı, ədəd | Əhalinin sayı, nəfər |
|---|---|---|---|
| 1. | Abulbəyli kəndi | 1 | 3516 |
| 2. | Alakol kəndi | 3 | 4207 |
| 3. | Aşağı Quşçu kəndi | 1 | 10917 |
| 4. | Dönük Qırıqlı kəndi | 2 | 4040 |
| 5. | Düz Qırıqlı kəndi | 2 | 7084 |
| 6. | Əlibəyli kəndi | 1 | 4150 |
| 7. | Əyyublu kəndi | 3 | 11909 |
| 8. | Qovlar şəhəri | 4 | 15237 |
| 9. | Yuxarı Öysüzlü kəndi | 1 | 7236 |
| **Cəmi** | | **18** | **68 296** |

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 4-də Füzuli rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster aparıblar.

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Aşağı Əskipara kəndlərində, Berd və Krasnoselsk rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

5 mart Bədən tərbiyəsi və idman günüdür

# Azərbaycan idmanı yeni zirvələr fəth edir







Əvvəli 1-ci səh.

500 milyondan artıq tamaşaçı auditoriyasına malik yarışı 67 ölkədən çoxlu azarkeş Bakıda tribunalardan izlədi.

2019-cu ilin iyul ayında Bakıda təşkil olunmuş XV Avropa Gənclər Yay Olimpiya Festivalı gələcəyin idman ulduzlarının növbəti zəfər meydanı oldu. 48 ölkəni təmsil edən 3600-dən çox idmançı qalib adı uğrunda mübarizə apardı. Azərbaycan komandası Avropanın Rusiya, Böyük Britaniya və Türkiyə istisna olmaqla, bütün ölkələrini, o cümlədən Fransa, Almaniya, İtaliya, Ukrayna, İspaniya, Çexiya, Hollandiya, Belarus, İsveçrə, Avstriya və başqalarını qabaqlayaraq festivalda 23 medal qazanmış və ümumi komanda hesabında 4-cü olmuşdur. Medallardan 10-u qızıl, 7-si gümüş, 6-sı bürünc idi.

Güləşçilərimiz yarışlarda ümumilikdə 16 medal (8 qızıl, 5 gümüş, 3 bürünc) əldə edərək tarixi qələbəyə imza atdılar. Cüdoçularımız 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıblar. Gimnastika yarışlarında isə Azərbaycan atleti Səməd Məmmədli XV Avropa Gənclər Yay Olimpiya Festivalının idman gimnastikası yarışlarında gümüş medal qazanıb.

Keçən il mayın 29-da Azərbaycan daha bir əlamətdar idman hadisəsinin şahidi oldu. Bakı UEFA Avropa Liqasının finalına evsahibliyi etdi. Matçda İngiltərənin iki komandası - "Çelsi" və "Arsenal" üz-üzə gəldi. Paytaxtımızda əsl futbol bayramı yaşandı. Avropadan Bakıya gələn media təmsilçiləri, hər iki klubun azarkeşləri finalın təşkilini yüksək qiymətləndirdilər. 4:1 hesabı ilə qələbə qazanan "Çelsi" UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün qalibi oldu.

Azərbaycan idmançıları beynəlxalq turnirlərdə etimadı layiqincə doğrultdular. Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarında 82 atletlə təmsil olunan Azərbaycan 5-i qızıl, 10-u gümüş, 13-ü bürünc olmaqla 28 medal qazanaraq 50 ölkə arasında ilk onluqda yer aldı. Ölkəmizə ilk medalları (2 gümüş, 1 bürünc) akrobatika gimnastlarımız qazandırdılar. Dinamik hərəkətlər üzrə qarışıq cütlüklərin yarışında 28,830 xal toplayan Ruhidil Qurbanlı və Abdulla əl-Məşayxi gümüş medala sahib oldular. Balans hərəkətləri üzrə qarışıq cütlüklərin yarışında Ruhidil Qurbanlı-Abdulla əl-Məşayxi cütlüyü 28,160 xalla bürünc medala layiq görülüb. Ruhidil Qurbanlı-Abdulla əl-Məşayxi cütlüyü qarışıq hərəkətlər üzrə qarışıq komandaların yarışında 29,540 xal toplayaraq Oyunların gümüş medalına sahib oldular.

Cüdoçularımız II Avropa Oyunlarını bir gümüş və dörd bürünc medalla başa vurdular. "Minsk-2019"da Azərbaycan yığmasının bayraqdarı olan Rüstəm Orucov gümüş, Hidayət Heydərov, Məmmədəli Mehdiyev, Elmar Qasımov və İrina Kindzerska bürünc medallara layiq görüldülər. Güləşçilərimiz "Minsk-2019"u 10 medalla başa vurdular. Mahir Əmiraslanov, Hacı Əliyev və Mariya Stadnik qızıl, Nurməhəmməd Hacıyev, İslam Abbasov və Elmira Qəmbərova gümüş, Hacımurad Hacıyev, Camaləddin Məhəmmədov, Sabah Şəriəti və Alyona Kolesnik bürünc medal qazandılar.

Karateçilərimiz "Minsk-2019"da 5 medala sahib çıxdılar. Ölkəmizin hesabına qızıl medalı kumite yarışında Asiman Qurbanlı, gümüş medalları Rafael Ağayev, Firdovsi Fərzəliyev və İrina Zaretska, bürünc medalı isə Roman Heydərov yazdırdılar. Boks yarışlarında idmançılarımız 2 medal (1 qızıl və 1 bürünc) əldə etdilər. Alfonso Dominges II Avropa Oyunlarını qızıl, Lorentso Sotomayor isə bürünc medalla başa vurdular. Sambo yarışlarında ölkəmizə Ağasif Səmədov gümüş, Mehman Xəlilov və Emil Həsənov isə bürünc medallar qazandırdılar.

2019-cu ildə şahmatçılarımız həm ölkənin, həm də qitənin şahmat tarixinə yeni qələbələr yazdırdılar. Beynəlxalq qrossmeyster Teymur Rəcəbov dünya kubokuna sahib olan ilk azərbaycanlı kimi tarixə düşdü.

Bu il isə ölkəmiz növbəti mötəbər yarışlara evsahibliyi edəcək. Avropa futbol çempionatının final mərhələsinin dörd matçı, "Formula-1" Azərbaycan Qran-prisi Bakıda təşkil olunacaq. Azərbaycan yüz milyonlarla insanı özünə ecazkar surətdə bağlayan futbol kimi kütləvi oyunların təşkilində çoxdan liderlərlə eyni cərgədə addımlaya bildiyini və bir çox hallarda onları geridə qoymağı bacardığını növbəti dəfə təsdiq edəcək.

Göründüyü kimi, Azərbaycanın idman potensialı ildən-ilə daha da güclənir. Hər il beynəlxalq turnirlərdə yüzlərlə medal qazanılır. Bədən tərbiyəsi və idmanın inkişafı naminə yürüdülən dövlət siyasəti düşünülmüş, məqsədyönlü olduğundan gözlənilən nəticələr əldə edilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## ADA Universiteti ABŞ-ın Corc Vaşinqton Universiteti ilə birgə akademik tərəfdaşlıq haqqında razılaşma imzalayıb

**ADA Universiteti ABŞ-ın Corc Vaşinqton Universiteti ilə birgə akademik tərəfdaşlıq haqqında razılaşma imzalayıb.**

AZƏRTAC-a ADA Universitetindən bildirilib ki, bu razılaşma çərçivəsində universitetlər Bakıda və Vaşinqtonda tədris olunan birgə proqramlar həyata keçirəcək, pedaqoji heyətin inkişafı üzrə əməkdaşlıq edəcək və birgə tədqiqat layihələri aparacaqlar.

Razılaşmaya əsasən, həyata keçirilən ilk tərəfdaşlıq ADA Universiteti və Corc Vaşinqton Universiteti tərəfindən təklif olunan Kompüter elmləri və Data analitikası üzrə yeni magistr proqramının açılmasıdır. Proqram "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" vasitəsilə və BP və tərəfdaşları tərəfindən maliyyələşdirilir.

Tədris yay semestri də daxil olmaqla beş semestr ərzində aparılacaq. Bu semestrlərin üçü Bakıda, iki semestr isə Corc Vaşinqton Universitetində keçiriləcək. Vaşinqtondakı təhsil müddəti ərzində tələbələr Corc Vaşinqton Universitetinin Mühəndislik və Tətbiqi Elmlər Məktəbinin müasir laboratoriya və tədqiqat mərkəzlərindən faydalanmaq imkanı əldə edəcəklər.

Proqramın məzunları ADA Universiteti və Corc Vaşinqton Universitetindən magistr dərəcəsi əldə edəcəklər. Tələbələrin hər iki universitetdə təhsil haqqı, Vaşinqtona səfəri və oradakı yaşayış xərcləri Dövlət proqramı və BP və tərəfdaşları tərəfindən ödənilir.

Proqrama qəbul üçün namizədlərdən müvafiq sahədə bakalavr dərəcəsi və ingilis dili bilikləri tələb olunur. Müraciət üçün son tarix aprelin 17-sidir.

Bütün maraqlanan namizədləri əlavə məlumat üçün ada.edu.az/csda veb-səhifəsinə daxil olmağa və ya **csda@ada.edu.az** elektron ünvanına məktub yazmaqla və ya (+99450) 274 95 52 nömrəsinə zəng etməklə qəbul şöbəsi ilə əlaqə saxlamağa dəvət edirik.

# Azərbaycan və Rusiyanın Rostov vilayəti arasında biznes forum keçirilib





Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində martın 4-də Azərbaycan ilə Rostov vilayəti arasında ticari-iqtisadi və mədəni-humanitar əməkdaşlığın inkişafına dair biznes forum keçirilib.



AZƏRTAC xəbər verir ki, biznes forumda hər iki ölkədən ticarət, sənaye, təhsil, səhiyyə, kənd təsərrüfatı, logistika, sığorta, konsaltinq və sair sahələrdə fəaliyyət göstərən 100-dək iş adamı iştirak edib.

Tədbirdə çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səylərinin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaratdığını, bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edən Azərbaycan və Rusiya əlaqələrinin strateji səviyyədə olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan-Rusiya əməkdaşlığının vacib istiqamətlərindən biri də ticarət-investiya əməkdaşlığıdır və hər iki ölkənin sahibkarları arasında əlaqələrin genişləndirilməsi bu məqsədə nail olunmasında mühüm rol oynayır. Azərbaycan Rusiyanın 70-dən çox federal subyekti, o cümlədən Rostov vilayəti ilə sıx əməkdaşlıq edir. Bununla yanaşı, sənaye, kənd təsərrüfatı maşınqayırması, alternativ enerji, humanitar və sair sahələrdə Rostov vilayəti ilə əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar var.

M.Cabbarov Azərbaycan iqtisadiyyatı, həyata keçirilən islahatlar barədə forum iştirakçılarına məlumat verib, Rostov vilayətinin sahibkarlarını ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya imkanlarından yararlanmağa dəvət edib.

Rostov vilayətinin qubernatoru V.Qolubev Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, işgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin, biznes forumların ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətini qeyd edib. O, Rostov vilayətinin iqtisadi-investisiya imkanları barədə məlumat verib, Azərbaycanla əlaqələrin inkişafı, ticarət dövriyyəsinin artırılması üçün potensialı diqqətə çatdırıb.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov siyasi münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb, qarşılıqlı səfərlərin və keçirilən görüşlərin Azərbaycan və Rusiya əlaqələrinin inkişafına verilən böyük önəmin göstəricisi olduğunu qeyd ediblər.

Biznes forum çərçivəsində Rusiyanın Rostov vilayətinin investisiya-turizm imkanları barədə təqdimat keçirilib.

Tədbirdə Azərbaycan və Rusiyanın Rostov vilayətində birgə həyata keçirdiyi layihələr barədə məlumat verilib, "Voterfoll PRO" MMC-nin rəhbəri Konstantin Kuzin, "Aviakompaniya Azimut" SC-nin icraçı direktoru Eduard Tepliçkiy və "Cənub Universiteti"nin (İdarəetmə, biznes və hüquq İnstitutu) rektoru İmran Əkbərov təmsil etdikləri müəssisələrin fəaliyyətinə dair təqdimatlarla çıxış ediblər.

Biznes forum çərçivəsində sənaye, turizm, konsaltinq, humanitar və sair sahələrdə əməkdaşlığa dair sənədlər imzalanıb.

Tədbir sahibkarlar arasında ikitərəfli görüşlərlə davam edib.

# Siyasi tərəfdaşlıq mədəni əməkdaşlıqdan başlayır

Əvvəli 1-ci səh.

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 21-də Romada keçirilən Azərbaycan-İtaliya biznes forumunda iştirakı zamanı bütün bunlar haqqında ətraflı söz açıldı. İtaliyanın Prezidenti Sercio Mattarellanı xüsusi məmnunluq hissi ilə ölkələrimiz arasındakı münasibətlərə diqqət çəkdi: "Mən inanıram ki, elm, texnologiya və təhsil sahələrində bağlanmış sazişlər bizim xalqlarımız arasında mövcud olan qarşılıqlı anlaşmanı və dostluğu daha da gücləndirəcək".

İtaliyanın dövlət başçısı onu da bildirdi ki, forumdan sonra veriləcək konsert yalnız Azərbaycan xalqının yaradıcılığının qeyri-adiliyini deyil, həmçinin ölkələr arasında mövcud olan dərin mədəni oxşarlıqları da bir daha sübut edir: "Təsadüfi deyil ki, proqram İslam dünyasında ilk opera olan, keçən əsrin əvvəllərində Bakıda səhnələşdirilən və elə o dövrdən etibarən bizim mədəniyyətlərin yüksək sintezini ifadə edən, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərinin məşhur bir parçası ilə başlayacaq..."

Prezident İlham Əliyev isə xüsusi olaraq vurğuladı ki, Azərbaycan və İtaliya arasında əlaqələrin zəngin tarixi var: "Ən azı 30 min ildən artıq yaşı olan petroqliflərin yerləşdiyi və UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil olunmuş Qobustan Dövlət Tarixi Qoruğu ərazisindəki qayalar üzərində Roma İmperiyası legionlarının bizim eradan əvvəl I əsrə aid latınca yazıları vardır. Bu yazılar Roma İmperiyası legionlarının Azərbaycan ərazisində olduğunu sübut edir. İtalyan səyyahı Marko Polo öz əsərlərində Azərbaycandan bəhs etmişdir. XV əsrdə Azərbaycan Ağqoyunlu dövləti ilə Venesiya Respublikası arasında siyasi, diplomatik əlaqələr qurulmuşdur".

Azərbaycan-İtaliya arasında mədəniyyət sahəsində də münasibətlər uğurla inkişaf edir. 2012-ci ildə Romanın görkəmli Villa Borgeze parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olub.

İtaliya qədim sivilizasiyanın beşiyidir. Onun mədəniyyəti, incəsənəti, kino sənəti Azərbaycanda çox sevilir. Minlərlə Azərbaycan vətəndaşı hər il İtaliyaya turist səfərləri edir. Son üç il ərzində İtaliyadan ölkəmizə gələn qonaqların səfər dinamikasında 40 faizdən çox artımın qeydə alınması da bunun təsdiqidir.

Bildiyimiz kimi, son illər iki ölkə arasında mədəniyyət və humanitar sahələrdə əməkdaşlıqda intensivlik müşahidə olunur. Heydər Əliyev Fondu tərəfindən İtaliyada həyata keçirilən layihələr, təşkil olunan tədbirlər ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələrin və xalqlararası təmasların inkişafına böyük töhfə verir. Artıq ənənə halını almış İtaliyada keçirilən Azərbaycan kino və mətbəx festivalları da ölkəmizin mədəniyyətinin təbliğinə əlavə imkanlar açıb. Roma şəhərində mədəniyyət abidələrinin bərpası işlərinə Azərbaycan tərəfindən göstərilən dəstək isə İtaliyada ölkəmizin nüfuzunun daha da artmasına təsir göstərən amillərdən hesab edilir.

Ölkələrimiz arasında mədəni əlaqələrin yüksək səviyyəsinin göstəricisi kimi "2020-ci il İtaliyada Azərbaycan Mədəniyyət İli" elan olunub. Bu münasibətlə səfər çərçivəsində fevralın 20-də Romadakı Kuirinale Sarayında da Azərbaycan və İtaliyanın dövlət başçılarının da iştirak etdiyi konsert proqramı təqdim olunub. Azərbaycan Dövlət Kamera Orkestri görkəmli Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini ifa edib. Elə bu çərçivədə İtaliyanın müxtəlif şəhərlərində təşkil olunacaq çoxsaylı tədbirlər ölkələrimizin mədəniyyətinin İtaliyada kütləvi tamaşaçı auditoriyalarında olmasına, xalqlararası təmasların daha da güclənməsinə və Azərbaycan-İtaliya əlaqələrinin genişlənməsinə töhfə verəcək.

Paris, Berlin və Vyanadan sonra dünyanın ən qədim şəhərlərindən biri hesab edilən Romada Azərbaycanın Mədəniyyət Mərkəzinin açılması nəzərdə tutulur.

İki ölkənin elmi-akademik çevrələri, ali təhsil ocaqları arasında mübadilələr də intensiv xarakter alıb. Hazırda Azərbaycan Dillər Universitetində italyan dili üzrə tərcüməçi ixtisası tədris olunur. Bundan başqa, həmin tədris ocağında italyan dili mərkəzi də fəaliyyət göstərir. İtaliyanın iki aparıcı universitetində - Roma Sapienza və Venesiya Ka Foskari universitetlərində azərbaycanşünaslıq fəaliyyəti çərçivəsində tədqiqatlar, tədris kursları həyata keçirilir. Habelə son illərdə İtaliyanın müxtəlif universitetlərində azərbaycanlı tələbələrin sayı artaraq 1500 nəfərə çatıb.

Ölkəmizin tarixi, mədəniyyəti, bugünkü həqiqətləri barədə italyan dilində çoxsaylı kitabların nəşrini də bu siyahıya əlavə etsək, mövcud əlaqələrin səviyyəsinin yüksək olduğunu görərik.

Təbii ki, 2020-ci ilin İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan edilməsi ilk növbədə Azərbaycan mədəniyyətinin İtaliyada təbliğini nəzərdə tutur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini və Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadənin sözlərinə görə, Mədəniyyət naziri Əbülfəs Qarayev ilə İtaliyanın Mədəni İrs, Fəaliyyətlər və Turizm naziri Dario Françeski arasında imzalanan memorandum ölkəmizin mədəniyyət sahəsinə bir çox istiqamətlər üzrə öz töhfəsini verəcək: "2020-ci ilin İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan edilməsi ilə bağlı müvafiq tədbir və fəaliyyətlər həyata keçiriləcək. Burada ən vacib istiqamətlərdən biri mədəni irsin təşviq olunması, qorunması, saxlanılması, rəqəmsallaşdırılması və bərpasıdır. Digər istiqamət UNESKO-nun mədəni irs siyahısına daxil edilmiş tarix və mədəniyyət abidələrinin mövcud vəziyyətinin qorunması sahəsində fəaliyyətin təmin olunması, eyni zamanda İtaliya ekspertlərinin gələcək nominasiyaların verilməsində dəstəyinin əldə olunmasıdır. Ölkədə arxeoloji abidələrin birgə araşdırılması, qorunması da vacib istiqamətlərdəndir".

Yeri gəlmişkən, bu memorandumun imzalanması ölkəmizdə kino sənətinin inkişafına da böyük töhfə verəcək. Belə ki, burada İtaliya, orada isə Azərbaycan kino günlərinin keçirilməsi, kino irsinin qorunması, bərpası və istifadəsi ilə bağlı layihələrin reallaşdırılması - film festivallarının, ekran əsərlərinin istehsalı və təbliğində birgə fəaliyyət də bir istiqamətdir. Qarşılıqlı əlaqələr həmçinin teatr sahəsinə də müsbət təsir göstərəcək.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri çərçivəsində imzalanmış sənədlər sırasında "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" müstəsna əhəmiyyət daşıyır. Sənəd çoxölçülü, çoxşaxəli, hərtərəfli tərəfdaşlığın müxtəlif sahələrdə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlığın daha da gücləndirilməsi üçün konkret istiqamətləri ehtiva edir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Azərbaycanda koronavirusla bağlı vəziyyət ciddi nəzarət altındadır

## Prezident İlham ƏLİYEV: "Azərbaycan hökuməti bütün lazımi tədbirləri görür"

*Əvvəli 1-ci səh.*

Ancaq deyə bilərəm ki, gündə bir neçə dəfə bu məsələ ilə bağlı ölkə ərazisində monitorinqlər aparılır, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıbdır".

Cənubi Qafqazın nəqliyyat-tranzit qovşağı olan Azərbaycandan həm də beynəlxalq yükdaşımalar həyata keçirilir. Çindən Avropaya ən qısa yol Azərbaycandan keçir. Dövlət başçısı bu məsələyə də diqqət çəkib. Heç bir ölkənin yükdaşımaların həyata keçirilməsinə məhdudiyyət qoymadığını xatırladan Prezident bildirib ki, tranzit potensialının gücləndirilməsini qarşısına məqsəd qoymuş Azərbaycan da analoji mövqe nümayiş etdirir. Bununla yanaşı, xəstəliyin yayılmaması üçün bütün məsələlər hər bir xırdalığa qədər düşünülür və müvafiq addımlar atılır: "Azərbaycan tranzit ölkədir və biz uzun illər çalışırdıq ki, öz tranzit potensialımızı genişləndirək, buna nail ola bilmişik. Heç bir tranzit yüklər üçün məhdudiyyət qoyulmur. Ancaq bu sahəyə də xüsusi diqqət göstərərək tranzit yüklərin, xüsusilə Cənub istiqamətindən ölkəmizə daxil olan, həm Azərbaycan istehlakçıları, həm də qonşu ölkələrin istehlakçıları üçün lazımi yüklərin çatdırılması ilə bağlı mütəşəkkil qaydada işlər aparılır, müvafiq yük maşınlarından ibarət xüsusi kolonlar formalaşdırılır, polis müşayiəti təmin edilib. Eyni zamanda göstəriş vermişəm, xarici sürücülərə yemək təqdim edilsin ki, onlar idarə etdikləri maşınlardan tez-tez çıxıb ictimai yerlərə getməsinlər. Yəni hər bir xırdalığa qədər düşünülmüş addımlar atılır, bunun da məqsədi Azərbaycan vətəndaşlarını bu xəstəlikdən qorumaqdır. Bu günə qədər bizim bütün addımlarımız uğurla nəticələnib. Biz daim Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasdayıq və xəstəliyi aşkar etmək üçün testlərin ölkəmizə gətirilməsi ilə bağlı işlər aparılır, bu məsələ öz həllini tapır".

Prezident İlham Əliyev son günlər ölkədə yaranan maska qıtlığı ilə bağlı məsələyə də toxunaraq Azərbaycanda kifayət qədər maska olduğunu vurğulayıb. Bu vəziyyətdən istifadə edərək öz qanunsuz gəlirlərini artırmaq istəyənlərə qarşı ciddi cəza tədbirləri tətbiq ediləcəyini bəyan edib: "Mənə verilən məlumata görə, son vaxtlar apteklərdə maskaların çatışmazlığı müşahidə olunur. Buna heç cür izahat tapmaq mümkün deyil. Çünki bizim kifayət qədər maska ehtiyatlarımız var. Görünür ki, hansısa möhtəkirlər bu vəziyyətdən istifadə edərək öz qanunsuz gəlirlərini artırmaq istəyirlər. Bütün hüquq mühafizə orqanlarına tapşırıq verilib ki, əgər belə hallar aşkar olunarsa, bu hallara yol verən vətəndaşlara qarşı ən ciddi cəza tədbirləri tətbiq ediləcəkdir. Çünki indiki şəraitdən istifadə edərək, öz tamahını təmin etmək üçün bəd əməllərə üz tutan ünsürlərə qarşı ancaq çox ciddi cəza tədbirləri tətbiq edilməlidir".

Dövlət başçısı koronavirusun yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının mühafizəsi istiqamətində bütün lazımi tədbirlərin görüldüyünü, ölkədə əhalinin narahatlığı üçün heç bir ciddi əsas olmadığını qeyd edib: "Bir daha Azərbaycan ictimaiyyətini əmin etmək istəyirəm ki, Azərbaycan hökuməti bütün lazımi tədbirləri görür. Bu günə olan mənzərəyə görə, narahatlığa heç bir ciddi əsas yoxdur. Karantində qalan vətəndaşların mütləq əksəriyyətində hələ ki, heç bir xəstəlik əlaməti aşkarlanmayıb. Əgər onların sağlamlığı normal olarsa, lazımi müddətdən sonra evlərinə buraxılacaqlar. Hesab edirəm ki, bu günə qədər bu məlumat kifayətdir. Eyni zamanda göstəriş verilib ki, bu məsələ ilə bilavasitə məşğul olan bütün səhiyyə orqanlarının nümayəndələri - Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta Agentliyi müntəzəm olaraq vətəndaşları məlumatlandırsınlar".





### Bütün növ nəqliyyat sistemi dezinfeksiya edilir

Koronavirus (COVID - 19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir. Yoluxma hallarının qarşısının alınması üçün dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlər intensivləşdirilir.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətində koronavirus infeksiyasına qarşı əks-epidemik profilaktik tədbirlər görülür. Belə ki, dezinfeksiya işləri fevralın 21-dən etibarən bütün metropoliten obyektlərində və qatarlarda aparılmaqdadır. Bu tədbirlər fevralın 26-dan başlayaraq, gündəlik olmaqla, stansiyalarda da həyata keçirilir. Gündəlik iş şəraiti rejimində əllə təmas olunan səthlər, qapılar, şüşələr, pilləkən, keçid, vestibül, platfomalar və s. yerlərdə tutacaqlar, eskalatorların sürahiləri xüsusi dezinfektantlarla silinərək təmizlənir. Bu işlər gün ərzində bir neçə dəfə təkrarlanmaqla yerinə yetirilir və daimi olaraq nəzarətdə saxlanılır.

Tədbirlər Planına uyğun olaraq, "Bakı Metropoliteni" QSC-nin bütün inzibati binaları və yeməkxanalarında, o cümlədən, xidməti və işçi otaqlarda, sanitariya qovşaqlarında, vestibül, dəhlizlər və s. yerlərdə dezinfeksiya işləri mərhələli qaydada aparılır.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Həkim-Sanitar Xidməti koronavirusun regionda yayılmaq təhlükəsini nəzərə alaraq xüsusi Tədbirlər Planı reallaşdırır. Plana əsasən, sərnişin qatarlarında, tədris və tibb müəssisələrində, qaçqın və məcburi köçkünlərin sıx məskunlaşdığı yerlərdə sanitariya-gigiyena normalarına və qaydalarına, dezinfeksiya rejiminə ciddi əməl edilməsi yoxlanılır. Dəmir yolu ərazisində yerləşən bütün obyektlərin profilaktik və cari dezinfeksiyası aparılır. Dezinfeksiya həm ölkədaxili, həm də beynəlxalq istiqamətlərdə hərəkət edən qatarlarda, eləcə də dəmir yol stansiyalarında gündəlik həyata keçirilir. Profilaktik dezinfeksiya işləri Bakı, Gəncə vağzalında, sərnişinlərin olduğu perronlarda aparılır. Briqadalara hərəkətboyu xəstəlik aşkarlanarsa, xəstələri izolyasiya etmələri, onlarla kontaktda olan sərnişinləri siyahıya almaları tapşırılıb, eləcə də xəstələrin hospitalizasiyası barədə mühazirələr keçirilib. Bundan başqa, dəmir yolu ərazisində olan müalicə müəssisələrində qoruyucu tədbirlər görülüb və dezinfeksiyaedici vasitələr paylanılıb.

Xatırladaq ki, "Azərbaycan Dəmir Yolları" QSC-də koronavirusla əlaqədar qərargah yaradılıb. Məqsəd xəstəliyin Azərbaycanda yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativliyini təmin etməkdir. Eyni zamanda, Bakı Dəmiryol Vağzalında (012) 499 61 11 nömrəli "Qaynar xətt" fəaliyyət göstərir.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti də COVID-19 koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün bütün mülki aviasiya obyektlərinin dezinfeksiyasını həyata keçirir. AZAL və "Buta Airways" aviaşirkətləri tərəfindən aşağıdakı tədbirlər görülür:

*- uçuşlardan sonra hava gəmilərinin xüsusi dezinfeksiyaedici mayelər ilə dezinfeksiyası həyata keçirilir;*

*- hava gəmilərində HEPA havalandırma filtrləri vaxtaşırı dəyişdirilir;*

*- AZAL və "Buta Airways" aviaşirkətlərinin bütün təyyarələri universal profilaktik dəstlər, qoruyucu maskalar və dezinfeksiyaedici vasitələrlə təchiz edilib;*

*- hava gəmisində koronavirus infeksiyasına yoluxmaqda şübhəli bilinən xəstə aşkar edildiyi zaman tədbirlərin görülməsi üçün uçuş heyəti ilə treninqlər aparılıb.*

Azərbaycanın beynəlxalq hava limanlarında aşağıdakı tədbirlər görülür:

*- sutka ərzində dörd dəfə qeydiyyat zonalarında, tualetlərdə, sərnişinlər üçün nəzərdə tutulmuş otaqlarda bütün səthlərin, habelə sərnişinlərə və onların baqajlarına xidmət göstərən işçi heyətinin geyim və ayaqqabılarının dezinfeksiyası təmin edilir;*

*- gələn bütün sərnişinlər bədən hərarətini ölçən xüsusi cihaz vasitəsilə 3 səviyyəli yoxlamadan keçirilir;*

*- koronavirus infeksiyasına yoluxması şübhəli bilinən sərnişinin olduğu hava gəmisi üçün karantin meydançası ayrılmışdır. Belə hava gəmisinə xidmət göstərmək üçün istifadə olunmuş xüsusi texnika dezinfeksiyaedici vasitələrlə xüsusi qaydada emaletmə prosedurundan keçir;*

*- yüksək bədən hərarəti aşkar edilən şəxslərin dərhal təcrid edilməsi üçün aeroportda xüsusi otaq ayrılmışdır;*

*- koronavirus infeksiyasına yoluxmaqda şübhəli bilinən şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsinə çatdırılması üçün hava limanı ərazisində təcili tibbi yardım maşınları daim növbətçilik edir.*

Koronavirus xəstəliyi ilə bağlı ölkəmizdə ictimai nəqliyyat sahəsinin də nəzarətdə saxlanılması zərurəti yaranıb. Bu məqsədlə daşıyıcılara gündəlik olaraq sərnişin daşımalarında istismar edilən avtobusların xarici və daxili hissələrinin təmiz olmasına nəzarətin gücləndirilməsi, sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq avtobusların salonunda tez-tez dezinfeksiya işlərinin həyata keçirilməsi barədə müvafiq tapşırıqlar verilib. İnsanların həm təmas, həm də hava damcı yolu ilə infeksion xəstəliklərə yoluxmasına qarşı olan dərman preparatları ilə marşrut xətləri üzrə avtobuslar dezinfeksiya edilir.

Gecə saatlarında "General Auto Company" şirkətinin istehsalat bazasında 11, 38, 64, 15, 131 xətt marşrutları üzrə hərəkət edən avtobuslarda dezinfeksiya işləri həyata keçirilir. Bakı Nəqliyyat Agentliyinin (BNA) Mətbuat xidmətinin rəhbəri Mais Ağayevin verdiyi məlumata görə, artıq gündəlik olaraq xəttə çıxan 2100 avtobusda dezinfeksiya işləri tamamilə yekunlaşdırılıb. İndi təkrar dezinfeksiya işləri görülür. İstehsalat bazasında dezinfeksiya işləri ilə yanaşı, gündəlik olaraq bu xətlər üzrə son dayanacaqda da avtobuslarda təmizlik işləri aparılır.

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov bildirib ki, ümumtəhsil müəssisələrinin təxminən 50 faizə qədəri dezinfeksiya olunub. İndiyədək Azərbaycanın bütün coğrafiyası boyu 2400-dək ümumtəhsil məktəbində dezinfeksiya işləri aparılıb. Bu proses növbəti günlər ərzində bağçalardan tutmuş universitetlərədək bütün təhsil müəssisələrini əhatə edəcək.

### Dünyanın koronavirus mənzərəsi

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) martın 3-nə olan məlumatına əsasən, son 24 saat ərzində Andorra, İordaniya, Latviya, Mərakeş, Portuqaliya, Səudiyyə Ərəbistanı, Seneqal və Tunisdə koronavirus xəstəliyinə ilk yoluxma halları qeydə alınıb. Ümumilikdə 3112 nəfər bu xəstəlikdən ölüb.

Təsdiqlənmiş yoluxma hallarının sayı:

*Dünyada: 90870 (1922 yeni)*
*Çində: 80304 (130 yeni)*
*2946 ölüm halı (31 yeni)*
*Çinin xaricində:*
*10566 yoluxma halı (1792 yeni)*
*72 ölkə (8 yeni)*
*166 ölüm halı (38 yeni)*

Ayrı-ayrı ölkələrdə koronavirusla bağlı son statistikalara nəzər yetirək.

**Çində** ötən sutka ərzində 130 yoluxma, 31 ölüm faktı qeydə alınıb. İndiyədək 49914 nəfər sağalaraq xəstəxananı tərk edib. Ölkə üzrə 6416 xəstənin vəziyyəti kritikdir. Virusa yoluxanlarla yaxın təmasda olmuş 36432 nəfər tibbi nəzarət altındadır.

**İtaliyada** yeni növ koronavirus pnevmoniyasına yoluxanların sayı 2263 nəfərə yüksəlib, 79 nəfər isə infeksiyanın qurbanına çevrilib. Eləcə də bu virusdan xilas olanların sayı 11 nəfər artaraq 160 nəfər olub.

**İranda** indiyədək 31 vilayətdən 28-də yeni koronavirusa yoluxma halı təsdiqlənib. Xəstəliyə yoluxanların sayı 2336 nəfərdir. Bunların arasında 23 nəfər deputat var. Ötən gün İranın sənaye, mədən və ticarət naziri Rza Rəhmani yeni koronavirus şübhəsi ilə xəstəxanaya yerləşdirilib. İranın Təcili Tibbi Yardım Mərkəzinin rəisi Pirhüseyn Kulivənd də koronavirusa yoluxub. Virusdan həyatını itirənlərin sayı 77, sağalanların sayı isə 436 nəfər təşkil edir. Həmçinin ötən gün Ali Məhkəmənin sədrinin müşaviri koronavirusdan dünyasını dəyişib. Epidemiyanın qarşısını almaq üçün 54 min məhbus evə buraxılıb.

İranın Ərzaq və Dərman Məhsulları Təşkilatı ölkədə koronavirusa görə maska çatışmazlığının yarandığını bildirib. "Tibb müəssisələrində və xəstəxanalarda istifadə üçün həftə ərzində 40 milyon ədəd maskaya ehtiyac var. Təəssüflər olsun ki, ötən bir neçə gün ərzində ehtiyacı təmin etmək üçün Səhiyyə Nazirliyi qara bazardan maska alıb. Hazırda "N95" maskalarının ölkəyə idxalı ilə bağlı səylər göstərilir", - deyə məlumatda qeyd olunub.

**Almaniyada** yeni növ koronavirusa yoluxanların təsdiqlənmiş sayı 196 nəfərə çatıb. Ölkədə virusa yoluxanların ən çox olduğu bölgə əvvəlki kimi Şimali Reyn - Vestfaliyadır (103), ondan sonra Bavariya (37), Baden-Vürtemberq (28) və Qessen (12) gəlir. Paytaxt Berlində isə 3 yoluxma halına rast gəlinib.

ABŞ-ın Kaliforniya ştatında daha 2 nəfərdə koronavirus infeksiyası aşkarlanıb. Hər iki hal Kaliforniyanın Los-Anceles şəhərində qeydə alınıb. Yoluxan şəxslər 60 yaşlı kişi və 30 yaşlı qadındır. Onlar koronavirusun geniş yayıldığı yerlərə səyahət ediblər.

**Yunanıstan** Səhiyyə Nazirliyi ölkədə koronavirusa yoluxma ilə bağlı 8-ci halı təsdiqləyib. Nazirlik son yoluxan qadının daha əvvəl koronavirus aşkarlanmış xəstə ilə yaxın təmasda olduğunu yazıb. Hazırda o, Salonikidəki xəstəxanada karantindədir. Yunanıstanda koronavirusa ilk yoluxma halı fevralın 26-da Salonikidə İtaliyadan gələn 38 yaşlı qadında təsbit edilib.

**Gürcüstanda** artıq üç koronavirus infeksiyası aşkarlanıb, yoluxmuş hər üç şəxs ölkə vətəndaşlarıdır. 137 nəfər isə karantində saxlanılır.

Gürcüstan Səhiyyə Nazirliyinin Milli Xəstəliklərə Nəzarət və İctimai Səhiyyə Mərkəzinin direktoru Amiran Qamkrelidze yeni növ koronavirusun yayılması ilə mübarizə üçün sakinlərə mal və xidmətlərə görə nağdsız ödənişlərə keçməyi təklif edib.

**Polşada** koronavirusa yoluxma ilə bağlı ilk hadisə qeydə alınıb. Yoluxmuş şəxs Almaniyadan gələn xəstədir.

Ötən gün **Ukraynada** da ilk yoluxma faktı aşkarlanıb. Yoluxmuş şəxs İtaliyadan gəlib.

### Koronavirusla mübarizəyə maliyyə yardımları ayrılır

Dünən Dünya Bankı yoxsul ölkələrə koronavirusun yayılmasının vətəndaşların sağlamlığına və iqtisadiyyatına təsirlərinin aradan qaldırılması üçün 12 milyard ABŞ dolları məbləğində təcili dəstək paketinin ayrılmasını elan edib. Maliyyələşdirmə inkişafda olan ölkələrə sağlamlıq sistemlərini gücləndirməyə və epidemiyanın iqtisadi təsirini azaltmaq üçün özəl sektorla əməkdaşlığı artırmağa kömək etmək məqsədini daşıyır.

Dünya Bankının prezidenti Devid Malpass jurnalistlərə açıqlamasında vəsaitlərin sorğuların təhlili əsasında paylanacağını bildirib. Dəstək 8 milyard dollarlıq yeni vəsait və 4 milyard dollarlıq yenidən yönəldilmiş mənbələrdən ibarət olacaq.

Martın 3-də isə BMT koronavirusun yayılmasına qarşı mübarizəyə fövqəladə yardım fondundan 15 milyon dollar ayırıb. Bildirilib ki, bu vəsait Dünya Səhiyyə Təşkilatına və UNICEF-ə virusun yayılmasına nəzarət tədbirləri, yoluxma hallarının araşdırılması və milli laboratoriyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün verilir.

**Xəyalə MURADLI,**
**"Azərbaycan"**

# Maska qıtlığı, yoxsa möhtəkirlərin növbəti "bazarı"?

## Prezident İlham Əliyev insanların təşvişini fürsətə çevirənlərə sərt xəbərdarlıq etdi



Dünyanı cənginə alan koronavirus bəlası Azərbaycandan da yan keçmədiyi üçün hökumət epidemiyanın ölkədə kütləvi şəkildə yayılmasının qarşısının alınması üçün mühüm tədbirlər görür. Nazirlər Kabineti dərman vasitələrinin və tibbi ləvazimatlarının alınması üçün dövlət büdcəsində nəzərdə tutulmuş Ehtiyat Fondundan vəsait ayrılması barədə qərar verib. Sərəncama əsasən, Prezidentin Ehtiyat Fondundan 10 milyon manat məbləğində vəsait ayrılıb.

Ölkədə beynəlxalq standartlara cavab verən biotəhlükəsizlik laboratoriyaları yaradılıb. Bir sıra xüsusi təhlükəli xəstəliklərin molekulyar diaqnostikası üzrə ixtisaslaşan bu laboratoriyalar paytaxtda, eləcə də regionlarda fəaliyyət göstərir.

Ötən ay bəzi tibbi ləvazimat və preparatların (steril əlcək, baxil, qoruyucu kombinezon, tibbi maska və eynəklər, dezinfeksiyaedici maddə və avadanlıqlar, xüsusi geyimlər və zəruri olan digər tibbi ləvazimat və preparatlar) ölkə ərazisindən müxtəlif yollarla aparılmasının müvəqqəti olaraq məhdudlaşdırılmasına dair də qərar verilib.

### Maska hamının ala biləcəyi qədərdə və qiymətdə olmalıdır, amma...

Dövlətin bu istiqamətdə ciddi tədbirlər həyata keçirməsinə baxmayaraq, mediada, xüsusən də sosial şəbəkələrdə xəstəliklə bağlı yayılan bəzi yanlış məluamatlar, səs yazıları narahatçılığa səbəb olur. İnsanlar bu bəladan qorunma yolları axtarır, müxtəlif çarələr düşünür. Xəstəliyin profilaktikası, müayinəsi və müalicəsi ilə bağlı mütəxəssis fikirləri təzadlı olsa da, tibbi maskalardan istifadə ilə yoluxma riskinin azala biləcəyini düşünənlər say çoxluğu təşkil edir. Və elə bu səbəbdən də qoruyucu maskalara tələbat xeyli artıb, amma...

Paytaxt apteklərində müşahidələrdən məlum oldu ki, sən demə, iki aydır dünyanın koronavirusla mübarizə apardığı, digər ölkələrdən qıtlığını çəkdiyi tibbi maska, spirt idxal etməsi, bəzi "işbaz"larımızın da diqqətindən yayınmayıb. Bunu ciblərini doldurmaq üçün əlavə qazanc mənbəyinə çevirməyi planlaşdırıblar...

Nədən ki, hələ virusun özü yox, xəbəri Azərbaycana çatandan yavaş-yavaş apteklərdə maska, spirt, qrip dərmanları azalmağa, bahalaşmağa başladı. Virus sərhədlərimizə yaxınlaşanda və nəhayət ölkəmizdə aşkarlananda isə əməlli-başlı yoxa çıxdı. Sadalanan tibbi ləvazimatları, dərmanları almaq üçün ardıcıl baş çəkilən onlarla aptekdən "yoxdur" cavabı alındı. Əgər həmin ləvazimatlar tapılsa belə, onlar iki-üç qat baha oldu. Məsələn, əvvəllər 5 qəpiyə satılan tibbi maskalar 80 qəpikdən 2 manatadək, 2 manata satılan filterli maskalar isə 8-10 manata təklif olunur. 50 qəpiklik spirt də bahalaşıb - 2-3 manat olub.

Əslində, maska hamının ala biləcəyi qədərdə və qiymətdə olmalıdır. Aptekdəki satıcılar isə maskaların ya depoda olmaması, ya da onlara gündəlik limitlə verildiyini bildirirlər...

### "Hansısa möhtəkirlər bu vəziyyətdən istifadə edərək öz qanunsuz gəlirlərini artırmaq istəyirlər"

Azərbaycanda süni şəkildə yaradılan "maska qıtlığı", qiymət artımı məsələsinə Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışındakı çıxışında Prezident İlham Əliyev sərt münasibət göstərdi və bu hallara yol verən vətəndaşlara qarşı ən ciddi cəza tədbirləri tətbiq ediləcəyini bildirdi: "Son vaxtlar apteklərdə maskaların çatışmazlığı müşahidə olunur. Buna heç cür izahat tapmaq mümkün deyil. Çünki bizim kifayət qədər maska ehtiyatlarımız var. Görünür ki, hansısa möhtəkirlər bu vəziyyətdən istifadə edərək öz qanunsuz gəlirlərini artırmaq istəyirlər. Bütün hüquq mühafizə orqanlarına tapşırıq verilib ki, əgər belə hallar aşkar olunarsa, bu hallara yol verən vətəndaşlara qarşı ən ciddi cəza tədbirləri tətbiq ediləcəkdir. Çünki indiki şəraitdən istifadə edərək, öz tamahını təmin etmək üçün bəd əməllərə üz tutan ünsürlərə qarşı ancaq çox ciddi cəza tədbirləri tətbiq edilməlidir".

Prezident çıxışı zamanı bir daha vurğuladı ki, Azərbaycanın səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, eyni zamanda, gözlənilməz hadisələrə də hesablanıb.

*Ümumiyyətlə, koronavirus bütün dünyanı, insanlığı narahat edən bir bəladır. Bu xəstəlik kasıb, varlı, yüksək vəzifəli ayırd etmədən hər kəsi cənginə keçirmək gücündədir. Bu bəladan qurtarmaq isə, hamımızın, bütün insanların əl-ələ verib ona qarşı mübarizə aparması ilə mümkün ola bilər. Daha vicdanı yaddan çıxarıb insanların təşvişini fürsətə çevirməklə yox...*

*Müvafiq dövlət strukturları Prezidentin iradından və tapşırıqlarından ciddi nəticə çıxarmalı, vəzifə öhdəliklərinə məsuliyyətlə yanaşıb möhtəkirlərin "bazarını" bağlamalıdırlar.*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

# Tibbi xidmətin maddi-texniki bazası gücləndirilir

Ağdam rayonunun Xındırıstan kəndində xəstəxana əsaslı təmirdən sonra cəbhə bölgəsi sakinlərinin istifadəsinə verilmişdir.





Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov Prezident İlham Əliyevin cəbhə bölgəsində yerləşən Ağdama davamlı qayğısını minnətdarlıqla vurğulamışdır. Vaqif Həsənov əhaliyə səhiyyə, təhsil, mədəniyyət xidmətinin yaxşılaşmasını, bütövlükdə dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq bölgədə həyata keçirilən uğurlu sosial siyasət sahəsində qazanılan nailiyyətləri tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Son aylar bu bölgədə reallaşan sosial layihələr Xındırıstanı sözün həqiqi mənasında abad və müasir bir qəsəbəyə çevirmişdir.

